# Vasitəçisiz danışıqlar

## Sülhə aparan yol qısalır, kənar təsirlərə yer qalmır

**Ermənistan Azərbaycan torpaqlarını 30 il işğal altında saxladı. Bir-biri ilə ciddi siyasi rəqib olan ölkələrin regionda öz siyasi maraqları olduğundan Minsk qrupunun vasitəsi ilə aparılan danışıqlar heç bir nəticə vermədi. Danışıqlar uzandıqca məlum oldu ki, "Qarabağ düyünü"nü ancaq Azərbaycan əsgəri açа bilər.**

2020-ci il sentyabrın 27-də başlanan əks-hücum əməliyyatı işğalçı Ermənistan ordusunun darmadağın olması ilə başa çatdı. Noyabrın 10-da Azərbaycan Respublikası Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin tərəfindən imzalanan bəyanatla işğalçı ölkə təslim olduğunu etiraf etdi.

Bu sənədin imzalanması təkcə regionumuzda deyil, dünyada yeni reallıqlar yaratdı. Birincisi, xarici qüvvələrin ölkəmizə qarşı olan əsas təzyiq aləti əldən çıxdı və Azərbaycan daha inamlı xarici siyasət aparmaq imkanı qazandı. İkincisi, Ermənistanla sülh danışıqlarında şərtləri diktə edən tərəf olduq, təbii ki, ədalətli şərtləri 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatından sonra əlimiz-qolumuz daha da gücləndi. İlk növbədə keçmiş Dağlıq Qarabağ ərazisində yaşayan erməni əhalisi ilə bağlı xarici qüvvələrin manipuliyasiya cəhdlərinə yer qalmadı. Azərbaycan müstəqilliyini bərpa edəndən sonra ilk dəfə bütün ölkə ərazisində suverenliyini bərpa etdi.

Torpaqlarımızı düşmən işğalından azad etdikdən sonra sülh danışıqlarının aparılması zərurəti yarandı və Ermənistanla danışıqlar başladı. Təcrübəli siyasətçi kimi Prezident İlham Əliyev bildirdi ki, danışıqlarda vasitəçi olsa, yenə məsələ uzanacaq. Buna görə dövlətimizin başçısı Ermənistana vasitəçisiz danışıqlar aparmağı təklif etdi. Lakin qarşı tərəf müxtəlif bəhanələrlə bu təklifdən yayınırdı. Eyni zamanda Avropada və Rusiyada aparılan danışıqlar da heç bir nəticə vermirdi. Nəhayət, bunu görən Ermənistan reallığı qəbul etməyə məcbur oldu - sülh danışıqlarını birbaşa aparmağa razılıq verdi.

Bunun ilk müsbət nəticələrini biz Qazaxın işğal altında olan kəndlərinin geri qaytarılmasında və sərhədlərin bir hissəsinin delimitasiyası barədə sənədin imzalanmasında gördük. Ermənistanda da başa düşdülər ki, birbaşa danışıqlarda nəticəyə nail olmaq mümkündür.

Hazırda Ermənistan ağır iqtisadi böhran içində yaşayır. Müharibə təhlükəsi qaldıqca daha çox gənc ölkəni tərk edir. Ümumiyyətlə, Ermənistan bu gün tarixində ən ciddi demoqrafik böhran keçirir. Ölkədə orduya çağırmağa gənc yoxdur, üstəlik əmək qabiliyyətli əhali də ölkədən gedir. Elə özlərinin bir neçə ay əvvəl açıqladığı statistik rəqəmlərə görə, Qarabağdan Ermənistana köçən 12 min nəfər ölkəni birdəfəlik tərk edib. Ölkənin gündəngünə fəlakətə doğru getdiyini görən Ermənistan rəhbərliyi anladı ki, bunun qarşısının alınmasının yeganə yolu Azərbaycanla sülh sazişini imzalamaq və bununla əmiyyətdəki müharibə xofunu aradan qaldırmaqdır.

Xəbər verildiyi kimi, iyulun 10-da Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan görüşüblər. Görüşdən sonra Azərbaycan Xarici İşlər Nazirliyinin açıqlamasından məlum olur ki, danışıqlar konstruktiv keçib. Məlumatda vurğulanır ki, tərəflər arasında keçirilən görüşdə dövlətlərarası normallaşma gündəliyinin müxtəlif aspektləri geniş müzakirə edilib: "Sərhədin delimitasiyası prosesi ilə bağlı əldə olunmuş nailiyyətləri dəyərləndirən liderlər bu istiqamətdə əməli işlərin davam etdirilməsi üçün müvafiq dövlət komissiyalarına tapşırıqlar veriblər. Tərəflər həmçinin iki ölkə arasında ikitərəfli danışıqları və etimad quruculuğu tədbirlərini davam etdirmək barədə razılığa gəliblər".

Xarici İşlər Nazirliyinin diplomatik dildə hazırladığı məlumatından da görünür ki, tərəflər danışıqlar barədə sonacan açıq məlumat vermirlər, yeni razılaşmalar əsasında nəyi açıqlamaq lazımdırsa, onu açıqlayırlar. Bunun bir səbəbi Ermənistandakı vəziyyətlə bağlıdır. Azərbaycandan fərqli olaraq qonşu ölkədə daxili ictimai-siyasi vəziyyət çox gərgindir. N.Paşinyana qarşı birləşmiş revanşist qüvvələrin ölkədə kütləyə təzyiq mexanizmi elə də zəif deyil. Bu yaxınlarda məlum oldu ki, həmin qüvvələr N.Paşinyanı hakimiyyətdən devirmək üçün çevriliş planı hazırlayıblarmış. Bu işə erməni kilsəsinin qarışması məsələni daha da mürəkkəbləşdirir. Unutmayaq ki, müəyyən tarixi səbəblərə görə, Ermənistanda kütləyə təsir göstərməkdə kilsə böyük imkanlara malikdir. Buna görə də erməni baş naziri bu iki birləşmiş qüvvəyə qarşı mübarizə aparmaq məcburiyyətindədir.

Amma Ermənistanın bəlası təkcə daxili qüvvələrdən ibarət deyil. Məlumdur ki, indiyədək bu ölkənin müstəqilliyi formal olub, daxili və xarici siyasətini kənar qüvvələr və dövlətlər müəyyən edib. Bu siyasi xətdən uzaqlaşan Ermənistanı cəzalandırmaq istəyən xarici güclər çoxdur. Xüsusən şimal qonşumuz həmişə itaətkar olmuş qonşumuzu cəzalandırmaq üçün ciddi diplomatik təsirlərlə yanaşı, daxildəki qüvvələrdən də istifadə edir. Ancaq N.Paşinyan hökuməti imkan daxilində buna müqavimət göstərmək, müstəqil siyasət aparmaq istəyir. Əbu-Dabi danışıqları buna nümunədir. Artıq onlar başa düşüblər ki, kənar güclər yalnız öz siyasi maraqlarını təmin etməklə məşğuldur, erməni xalqının düşdüyü acınacaqlı durum onları maraqlandırmır.

Əbu-Dabi görüşünə dünyada da böyük maraq oldu. Çünki Azərbaycanla Ermənistan arasında sülh sazişinin bağlanması təkcə regionda deyil, həmçinin beynəlxalq müstəvidə yeni reallıq yaradacaq. Xüsusən yeni dünya düzəninin qurulması barədə ciddi geosiyasi proseslərin getdiyi indiki dövrdə problemin birdəfəlik həlli böyük əhəmiyyət kəsb edir. Bu əhəmiyyəti artıran həm də Zəngəzur dəhlizinin açılması məsələsidir. Məlumdur ki, dəhlizin tərəfdarları ilə əleyhdarları arasında ciddi rəqabət var. Çin, Orta Asiyadakı türk dövlətləri, Rusiya və Türkiyə dəhlizin açılmasında maraqlıdırlar. İran və Hindistan isə əleyhinədirlər. Lakin N.Paşiyanın verdiyi son bəyanatlardan görünür ki, artıq qonşu ölkə də bu dəhlizə maraq göstərir.

Əbu-Dabi danışıqları bir daha göstərdi ki, vasitəçisiz danışıqlar hər iki tərəf üçün faydalıdır. Belə yanaşma sülhə aparan yolu qısaldır, kənar təsirlərə yer qoymur. Şübhəsiz ki, bu formatda danışıqların pozulmasına çalışan qüvvələr də olacaq. Azərbaycanın mövqeyi aydın və qətidir. Bəs, Ermənistan həmin təzyiqlərə dözüb mövqeyini qoruya biləcəkmi? Bu suala, türk qardaşlarımız demiş "net" cavab vermək hələlik çətindir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

Azərbaycan.-2025.- 13 iyul (№ 142).- S.6.